**UOT 327**

# SOSİALİZM SİSTEMİNİN SÜQUTU DÖVRÜNDƏ AZƏRBAYCAN- QAZAXISTAN ƏMƏKDAŞLIĞININ HƏDƏFLƏRİ

**Dilbər HÜSEYNLİ***

***Aparıcı sözlər:*** *Azərbaycan, Qazaxıstan, imperiya, müstəqillik, münasibətlər*

## *XÜLASƏ*

1970-ci illərdən başlayaraq milli səviyyədə aparılan yanlış iqtisadi, siyasi və sosial siyasət, beynəlxalq aləmdə baş verən bir sıra proseslər ucbatından SSRİ dağılmağa başladı. Bu illərdə ortaya çıxan sosial-iqtisadi problemlər cəmiyyətin ideologiyaya olan inamını sarsıtmağa başladı. Meydana çıxan proseslərdən hələ bir neçə il əvvəl yaşadıqları cəmiyyətin dünyanın ən xoşbəxt cəmiyyəti olacağına əmin olan insanlar artıq bunun belə olmadığını anlamağa başlamışdılar.SSRİ ideologiyası artıq cəmiyyətin sosial, iqtisadi vəziyyətinə, əsarətində yaşayan xalqların istəklərinə çarə tapa bilmirdi. Yetmiş ildir əsarətdə qalan müstəmləkə dövlətləri müstəqilliyə can atmağa başlamışdı. Əsrin son on illiyində bir-birinin ardınca müstəqillik əldə edib suveren dövlətlərə çevrildilər. Bundan sonra keçmiş müstəmləkə dövlətləri tədricən beynəlxalq münasibətlər sisteminə, müasir dünyaya inteqrasiya olunmağa və digər dövlətlərlə əlaqələr qurmağa başladılar.

Bu qəbildən olan Azərbaycan və Qazaxıstan da 1990-cı illərdə müstəqillik əldə etdilər. Müstəqillikdən sonra dövlətlərimiz ortaq tarix, din, dil amillərindən dolayı asanlıqla münasibət qurub müxtəlif sahələrdə əməkdaşlıq etməyə başladılar. Həm müstəmləkə, həm də müstəqillik dövrlərində respublikalarımız bir-birini dəstəkləmiş və dostluq münasibətləri saxlamışdır.

## Giriş

20-ci əsr beynəlxalq siyasi sistemdəki inkişaf və struktur dəyişiklikləri baxımından əvvəlki dövrlərdən çox fərqli bir əsr olmuşdur.Bu əsrdə Avropada başlayan və bütün dünyanı təsiri altına alan milliyyətçilik ideyaları sayəsində böyük imperiyalar bir-bir dağılaraq yerlərini milli dövlətlərə buraxdılar.1970-ci illərdən başlayaraq milli səviyyədə aparılan yanlış iqtisadi, siyasi və sosial siyasət, beynəlxalq aləmdə baş verən bir sıra proseslər ucbatından SSRİ dağılmağa başladı. Bu illərdə ortaya çıxmağa başlayan sosial-iqtisadi problemlər cəmiyyətin sovet ideologiyasına olan inamını sarsıtmağa başladı.Meydana çıxan proseslərdən hələ bir neçə il əvvəl yaşadıqları cəmiyyətin dünyanın ən xoşbəxt cəmiyyəti olacağına əmin olan insanlar artıq bunun belə olmadığını anlamağa başlamışdılar.Sovet ideologiyası artıq cəmiyyətin sosial, iqtisadi vəziyyətinə, əsarətində yaşayan xalqların istəklərinə çarə tapa bilmirdi. Dövlət hakimiyyətin əsas mənbəyi olan vahid partiya tərəfindən idarə olunurdu və bu partiyanın müxtəlif səviyyələrində olan idarəçilər də cəmiyyətin fərqli, imtiyazlı təbəqəsi kimi meydana çıxırdılar.Bu da insanların narazıçılığına səbəb olurdu.

Beləliklə, partiya cəmiyyətdə tədricən nüfuzunu itirdi və kommunizm həm sistem, həm də doktrina olaraq rədd edildi. Bu sistemin dağılması ilə milliyyətçilik insanların sığınacağı ən asan yol və ideologiya kimi qəbul edildi. Bütün imperiya ərazisində rejimə qarşı etirazlar getdikcə artdı və ümumimperiya səviyyəsinə çatdı. Yetmiş ildir əsarətdə qalan müstəmləkə dövlətləri müstəqilliyə can atmağa başladı. Əsrin son on illiyində bir-birinin ardınca müstəqillik əldə edib suveren dövlətlərə çevrildilər. Bundan sonra keçmiş müstəmləkə dövlətləri tədricən beynəlxalq münasibətlər sisteminə, müasir dünyaya inteqrasiya olunmağa və digər dövlətlərlə əlaqələr qurmağa başladılar.

**AMEA ak.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*E-mail: huseynlid93@gmail.com*

**1. Sosializm sisteminin süqutu dövründə baş verən proseslər**

Sovet İttifaqında qeyri-rus xalqları rus hakim elitasına tabe idi. Siyasi, iqtisadi və hərbi cəhətdən yüksək dərəcədə mərkəzləşmiş hər bir regional partiya Moskvada Sov.İKP Mərkəzi Komitəsinə tabe idi. Hər hansı bir respublikanın özünü təmin etməməsi üçün aparılan iqtisadi və siyasi siyasət son dərəcə uğurlu olmuşdur. Respublikalar bir-birindən asılı vəziyyətə salınmışdı. SSRİ daxilində bölgələrlə mərkəz arasında sıx sosial, iqtisadi və siyasi əlaqə qurulmuşdu. Heç bir ölkə özünü təmin edə bilmirdi. Məsələn, Azərbaycanın Qarabağ bölgəsində istehsal olunan texniki parçalar olmadan Baltikyanı ölkələrdə radio istehsalı mümkün deyildi. Orta Asiya ölkələrində yetişdirilən pambıq Moskvadakı ip əyirmə və toxuculuq fabriklərində hazır məhsula çevrilirdi. Beləliklə də mərkəz tərəfindən ölkələr bir-birindən asılı vəziyyətdə saxlanılırdı.

1980-ci illərdən sonra Sovet İttifaqını bir imperiya kimi qoruyub vahid şəkildə saxlayan partiya və onun ideologiyası dağılmağa başladı, çünki mövcud ictimai quruluş həmin dövr üçün lazımi mal və xidmətləri təmin etmək iqtidarında deyildi. Kommunist Partiyası ideologiyası hərbi və mülki bürokratlar sinfinə üstünlük verirdi və insanları yalnız zor gücünə, artıq ideologiyanın "laxlayan" ənənələrindən istifadə edərək nəzarət altında saxlamağa çalışırdı. Bu sistemin dağılması ilə ortaya çıxan xaos mühitində milliyyətçilik ən asan yol və insanların sığınacağı bir ideologiya olaraq qəbul edilməyə başlandı. 1980-ci illərdən başlayan sosial, iqtisadi və siyasi problemlərin həlli kimi təqdim edilən qlasnost və yenidənqurma siyasəti keçmişdə və daha çox Stalin dövründə baş verən pis rəftar, kütləvi qətllər və digər bəlaları açıq şəkildə ortaya qoydu. Rusiya daxilində olduğu kimi, eləcə də SSRİ-ə daxil olan digər ölkələrdə də bu mövzularla bağlı ilk dəfə həmin illərdə açıq müzakirələr aparılmağa başlandı. Ölkədəki vəziyyətin həll yolu kimi təqdim edilən bu siyasət xalqın, xüsusən də radikal islahatçı qrupun daha çox demokratiya, daha çox azadlıq və Qərb tipli həyat tələbini ödəməklə ölkəni bu xaosdan xilas edə bilmədi. Baltikyanı və Qafqaz ölkələrində iqtisadi problemlərin artması nəticəsində küçə nümayişləri ilə başlayan etirazlar daha sonra müstəqillik tələblərinə qədər gətirib çatdırdı(1, s.150).

20-ci əsrin əvvəllərində Qafqazda özbaşına şəkildə çəkilmiş sərhədlər ölkələr arasında münaqişələri etnik münaqişə formasına salaraq müasir dövrümüzə qədər daşınmasına səbəb olmuşdur. 1980-ci illərin sonlarına doğru Sovet İttifaqında başlayan böhranlarla Qafqazda həll olunmamış problemlər yenidən gündəmə gəlməyə başladı. Bu mübahisələrdən ən mühümü Qarabağ bölgəsi idi. Ermənilərin də məskunlaşdığı Qarabağ bölgəsi 1923-cü ildə Azərbaycan Respublikasının tərkibində muxtar vilayət kimi elan edilmişdi. SSRİ-nin dağıldığı ərəfədə ermənilərin də məskunlaşdığı Qarabağ bölgəsində erməni kilsəsi və erməni milliyyətçiləri müstəqil Ermənistan ideyasını canlı saxlayaraq hər an gündəmə gətirirdilər. 1988-ci ildə Qarabağ vilayəti sovetinin Qarabağ bölgəsinin Ermənistana verilməsi ilə bağlı müraciəti Sovet İttifaqı Ali Soveti tərəfindən rədd edilmiş və Qarabağın xüsusi idarə ilə idarə olunması qərara alınmışdır. Bundan sonra Qarabağ vilayəti Sovetinin Azərbaycanı tərk edərək müstəqilliyini elan etdikdən sonra bölgədə qarşıdurmalar yaranmağa başladı (1, s.158).

Moskva isə Qafqazdakı sərhəd problemlərindən istifadə edərək bölgədəki insanların narazıçılıqlarının istiqamətini Moskvanın lehinə doğru dəyişməyə çalışırdı. Bu qarşıdurmalardan istifadə edən mərkəz çaxnaşma yaradaraq məlum sondan qaçmağa çalışırdı. Bölgədə məskunlaşmış erməni əhali isə bu sərhəd problemlərindən istifadə edərək öz milliyyətçi fikirlərini gündəmə gətirməyə başladı.Sovet İttifaqının xammala olan tələbatını ödəyən ölkələrdən biri də Azərbaycan idi. Bundan əlavə bölgənin neft ehtiyatları kifayət qədər yüksək idi. Digər respublikalar kimi Azərbaycanın da gəlirinin əhəmiyyətli bir hissəsi Moskvaya gedirdi.Bu vəziyyət xalq,yerli idarəetmə arasında etiraz yaradırdı. SSRİ daxilində baş verən proseslərlə yanaşı, bu ölkələrin əhalisi ölkənin SSRİ-dən ayrılıb müstəqil olacağı təqdirdə təbii sərvətlərindən daha səmərəli istifadə edib, daha yaxşı şəraitdə yaşaya biləcəklərini iddia etməyə başladı. Moskva idarəetməsinin müstəmləkə ölkələrində mühüm vəzifələrə öz adamlarını yerləşdirməsi və həmin ölkələrin öz siyasi elitasını, ziyalı təbəqəsini mühüm vəzifələrdən uzaqlaşdırması bu ölkələrdə mərkəzə qarşı mənfi reaksiyaya səbəb olurdu. Bundan başqa, illər boyu Stalinin göstərişi ilə Qafqazda yaşayan bir çox xalqların kütləvi surətdə Sibirə və Orta

Asiyaya sürgün edilməsi bölgədə yaşayan insanlarda Rusiyaya qarşı kin və nifrətin yaranmasına, milliyyətçilik hisslərinin güclənməsinə səbəb olmuşdu.Bu reaksiya ən yaxşı şəkildə milliyyətçi arqumentlərdə ifadə olunurdu. Demək olar ki, oxşar hadisələr Gürcüstanda da yaşanmağa başladı

1960-cı illərdən Gürcüstanda ziyalılar arasında milliyyətçilik ideyaları var idi. 1980-ci illərdə gürcü dili universitetlərdə tədris dili kimi qəbul edilmişdir. Gürcü milliyyətçiliyi və gürcü dilinin tədris dili kimi qəbul edilməsi regionda yaşayan azsaylı xalqlar arasında inamsızlığa və bölgədə vaxtaşırı qarşıdurmalara səbəb olmuşdu.Milliyyətçi hərəkatların artması, ard-arda baş verən münaqişələr nəticəsində Cənubi Osetiya və Abxaziyanın müstəqilliklərini elan etməsi regionda qarşıdurmaların artmasına və bölgədə dincliyin itməsinə səbəb oldu (2, s.67).

Milliyyətçi və separatçı hərəkatların ən çox yaşandığı ölkələr heç şübhəsiz Baltikyanı ölkələr idi. Stalin dövründə baş verən özbaşınalıqlar və kütləvi qətllər Baltikyanı ölkələrin xalqlarının yaddaşından silinməmişdi. Qlasnost siyasəti nəticəsində törədilən cinayətlər və ədalətsizliklər, Sovet İttifaqının 1940-cı illərdə zorla assimilyasiya cəhdləri Baltikyanı xalqlar tərəfindən etirazla qarşılanmağa başladı. Davam edən uğursuz iqtisadi siyasət nəticəsində Baltikyanı ölkələrdə günlərlə davam edən nümayişlər keçirilirdı. Keçmişdə Baltikyanı xalqların başına gətirilən müsibətlər, baş verən faciələr iqtisadi problemlərlə birləşdikdə milliyyətçi arqumentlər ön plana çıxırdı. Bu ölkələrdə keçmiş yüksək vəzifəli partiya liderləri milliyyətçi qüvvələrin liderlərinə çevrilmişdilər. Beləliklə, Kommunist Partiyası daxilində də separatçı hərəkətlər meydana çıxdı.

Orta Asiya Respublikalarında isə hadisələr bir qədər fərqli məcrada cərəyan edirdi. Bu ölkələrdə qlasnost dövrünün başlaması ilə Stalin dövründəki özbaşınalıqlar, ədalətsizliklər açıq şəkildə yazılmağa başladı. 1983-cü ildə Andropov, daha sonra Qorbaçov və Brejnev dövründə yerli idarəçilikdə kadrlar dəyişdirildi və onları Moskvaya yaxın idarəçilər əvəz etdilər, bu da region xalqlarının iğtişaşlar çıxarmasına səbəb oldu. Vəzifələrindən uzaqlaşdırılan idarəçilər xalqın milli hisslərini ön plana çəkməyə, Moskvaya qarşı kin-küdurətini bildirməyə və xalqı mübarizəyə təşviq edirdilər. Bundan əlavə bölgədə qadağan olunmuş İslam dini yenidən canlanırdı. Yerli idarəçilərdə bu milliyyətçi və İslami hisslərin inkişafına kömək edir və bununla da öz mövqelərini gücləndirirdilər.Bu dövrdə Mərkəzi Asiyada uğurla həyata keçirilən siyasət dil siyasəti idi. Bu respublikalarda rus dili milli dil kimi qəbul edilmiş, öz dilləri ikinci planda qalmışdı. Bu siyasət ruslaşdırma və vahid homogen xalq yaratmaq siyasətinin məqsədlərindən biri kimi həyata keçirilirdi. Mötəbər vəzifə tutmağın əsas şərti Moskvaya sadiq olmaq və rus dilini yaxşı bilmək idi. Bu, bölgə xalqları arasında böyük etiraza səbəb olurdu. Lakin müstəqilliklərini elan etdikdən sonra bu proses əksinə getməyə başladı və ilk növbədə dil islahatını həyata keçirdilər. Ana dilini dəstəkləmək və onu rus dilindən ayıraraq milliləşdirmək siyasəti əlifbanın dəyişdirilməsi kimi mühüm addımaqədər gətirib çıxardı.Mövcud ictimai quruluşun lazımi mal və xidmətləri təmin edə bilməməsi nəticəsində 1980-ci illərdə dağılmağa başlayan partiya və onun ideologiyası Mərkəzi Asiya Respublikalarında etnik milliyyətçilik və İslamla əvəzlənməyə başladı. Bu ölkələrdə milliyyətçilik 1980-ci illərdə artmağa başlasa da, yalnız müstəqillik əldə etdikdən sonra inkişaf etdi. SSRİ dönəmində milliyyətçi hərəkatlar bir neçə nümayişdən kənaraçıxa bilməmişdı, xalq 1990-cı illərə qədər SSRİ-nin tərkibindən çıxmaq fikrində deyildi (2, s.69).

Əsası iqtisadiyyatın ictimai mülkiyyəti prinsipinə söykənən sovet sistemində iqtisadi sərvətin bölüşdürülməsi etnik qruplar arasında qarşıdurma yaratmırdı və iqtisadi maraqlardan irəli gələn milliyyətçilik hərəkatları yox idi. Amma 80-ci illərin sonlarında yaranmış dərin sosial-iqtisadi, siyasi böhran və ölkənin sərvətlərinin bölüşdürülməsi məsələsi sovet xalqları arasında qarşıdurmaların yaranmasını sürətləndirdi. Qlasnost və yenidənqurma siyasəti ilə gələn demokratikləşmə, ideoloji və siyasi sahədə totalitar kommunizmdən imtina partiyanın inhisarçı quruluşunu ləğv etdi və sovet mexanizmini işlək vəziyyətə gətirdi.Milliyyətçilik 20-ci əsrdə bir çox imperiyaların dağılmasına və əvəzinə yeni dövlətlərin yaranmasına səbəb oldu(3, s.196). Bu dövlətlərdə milliyyətçilik və öz müqəddəratını təyinetmə prinsipi həlledici rol oynayırdı. Lakin Sovet İttifaqında vəziyyət bir qədər fərqli idi. Əslində, Sovet İttifaqı bir çox tarixçilərin iddia etdiyi milliyyətçilik və milli fikir ayrılıqları (baxmayaraq ki, bu fikir ayrılıqlarının mövcudluğu danılmazdır) ucbatından yox, iqtisadi, sosial

və siyasi siyasətlərin uğursuzluqları səbəbindən dağıldı. Ölkənin islahatçı kommunist liderlərinin yenidənqurmanın zəruri şərti kimi irəli sürdükləri qlasnost siyasəti müzakirə azadlığını bərpa etdi ki, bu da həm rejimi, həm də cəmiyyətin əsasını təşkil edən mərkəzi komandanlıq sistemini zəiflətdi. Yenidənqurmanın iflasa uğraması, yəni xalqın iqtisadi və sosial gözləntilərinin yerinə yetirilməməsi nəticəsində Sovet İttifaqına inam sarsıldı və bu, problemlərin regional və lokal həllini tələb etdi.

Ümumiyyətlə, SSRİ-dəki milli-etnik gərginlik heç vaxt SSRİ-nin birliyinə təhlükə törətməyib. Baltikyanı ölkələrdən kənarda inkişaf edən milliyyətçilik SSRİ-nin iqtisadi səbəblərdən buraxdığı ideoloji boşluğu doldurdu və dağılmaqda olan ittifaqın parçalanmasını sürətləndirdi. Bu dövlətlərdə əvvəllər də milli inanc var idi, lakin bu, separatizm və parçalanma həddində deyildi. Bu ittifaq indiki dövrə qədər tarixdə ən güclü ittifaq hesab olunur. 300 milyona yaxın bu qədər fərqli din, dil, milliyyət nümayəndələrinin yetmiş il boyunca bir yerdə yaşaması sovet ittifaqının apardığı ideologiyanın göstəricisidir (3, s.24)

## 2. Müstəqilliyin əldə edildiyi dövrdə Azərbaycan-Qazaxıstan əməkdaşlığının qurulması

Yetmiş illik əsarətdən çıxan Azərbaycan və Qazaxıstan ortaq soykökü, dil, din baxımından bir-birilə münasibət qurmaqda çətinlik çəkmədilər. İlk qurulan münasibətlər Türkiyə ilə 1992-ci il yanvar ayının 14-də oldu. Bundan sonra digər dövlətlərlə o cümlədən, Qazaxıstanla da diplomatik əlaqələr quruldu. Lakin qeyd etmək lazımdır ki, hələ dövlət müstəqilliyi bərpa edilməmişdən əvvəl, 1991-ci il sentyabrın 30-dan oktyabrın 2-dək Azərbaycan nümayəndə heyəti Qazaxıstana səfər etmişdi. Səfər iki respublika arasında əməkdaşlığın və mehriban qonşuluğun inkişaf etdirilməsi məqsədi daşıyırdı. Danışıqların yekununda, oktyabrın 1-də Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında 10 il müddətini nəzərdə tutan müqavilə imzalanmışdı. Bu müqavilə Qafqaz regionunun ən böyük dövləti olan Azərbaycanla, Mərkəzi Asiya regionunun ən böyük dövləti olan Qazaxıstan arasında yaranacaq siyasi, iqtisadi əməkdaşlığın ilk addımı idi. Təzəlikcə, müstəmləkə vəziyyətindən çıxaraq müstəqil dövlət olan Azərbaycan və Qazaxıstanın bir-birilə münasibət qurma cəhdi regiondakı digər dövlətlərə də stimul oldu. Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələr SSRİ dağıldıqdan bir müddət sonra, 1992-ci il avqustun 30-da quruldu. 1993-cü il yanvarın 9-da isə Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi fəaliyyətə başladı. İbrahim Amanqaliyev Qazaxıstan Respublikasının Azərbaycanda ilk səfiri oldu (4, s.627). Azərbaycan Respublikasının 11 aprel 1997-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Səfirliyi təsis edildi (5). Buununla da, Azərbaycanla Qazaxıstan arasındakı münasibətlərdə yeni səhifə açıldı. Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı Səfirliyi 1 mart 2004-cü il tarixində fəaliyyətə başlamışdır (6). Lətif Qəndilov Azərbaycan Respublikasının Qazaxıstandakı ilk səfiri oldu. Bu diplomatik münasibətlərin yaranması hər iki dövlət üçün faydalı oldu. On illiklər boyu SSRİ-nin tərkibində mövcud olan dövlətlər artıq müstəqil şəkildə siyasi, iqtisadi əməkdaşlıq aparmağabaşladı.

Azərbaycan Prezidenti Heydər Əliyevin Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə ilk görüşlərindən biri 19 oktyabr 1994-cü ilə təsadüf edib. Türk dövlətləri başçılarının ikinci zirvə görüşündə iştirak edən Heydər Əliyev və Nursultan Nazarbayev görüşərək, iki ölkə arasında münasibətlərin inkişafı perspektivlərini müzakirə ediblər. Görüş zamanı Azərbaycan-Qazaxıstan münasibətlərini həm türk dövlətlərinin münasibətləri çərçivəsində, həm də ikitərəfli şəkildə qurmaq haqda qərar qəbul edilib (7). Heydər Əliyev bu görüşdə çıxış edərək bildirmişdir ki, "...Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan respublikaları da indi müstəqil dövlətlər içərisindədirlər. Bu respublikalarla Azərbaycan arasında tarixi ənənələr, dostluq və qardaşlıq əlaqələri əsrlər boyu mövcud olmuşdur. Biz əsrlər boyu bir yerdə yaşamışıq, bir adət-ənənələrdən istifadə etmişik və bir- birimizə həmişə kömək etmişik. Müstəqil olmadığımız 70 illik bir dövrdə də, sovetlər birliyinin tərkibində olduğumuz vaxtda da ölkələrimiz arasında, yəni Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında dostluq, qardaşlıq əlaqələri həmişə sıx olub, həmişə çox möhkəm olubdur və biz bir-birimizə həmişə dayaq olmuşuq" (8, s.249). 1995-ci ilin fevral ayının 14-də MDB dövlət başçılarının Almatıda

görüşü keçirilir (9).Bu görüş çərçivəsində Heydər Əliyevlə Nursultan Nazarbayev arasında danışıqlar baş tutmuşdur. 1995-ci il avqust ayının 9-u qazax şairi, yazıçısı, ictimai xadim, müasir qazax yazılı ədəbiyyatının banisi, maarifçi liberal islamın əsasında qazax mədəniyyətinin rus və avropa mədəniyyətləri ilə yaxınlaşması tərəfdarı olmuş Abay Kunanbayevin 150 illik yubileyi münasibətilə prezident Heydər Əliyev Qazaxıstana səfərə yola düşmüşdür (10). Bu səfər zamanı Heydər Əliyev yubiley münasibətilətəşkil edilmiş tədbirdə iştirak etmiş və nitqində xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərindən, Azərbaycan xalqının Qazaxıstana bəslədiyi hörmət və məhəbbətindən, Abay Kunanbayevin qazax xalqı və bütövlükdə bəşəriyyət üçün yazıb yaratdıqlarından söz açmışdır. Abay Kunanbayevin yaradıcılığını yüksək qiymətləndirmiş və qazax xalqının da yazıçının irsinə olan dərin sevgisindən söz açmışdır. 1995-ci il oktyabr ayının25-də BMT-nin 50 illik yubileyi ilə bağlı tədbir keçirildi (7). Bu tədbirdə Heydər Əliyevlə Nursultan Nazarbayev arasında növbəti görüş baş tutdu. Görüş zamanı dövlət başçıları Azərbaycan Qazaxıstan münasibətlərinin perspektivlərini, iki ölkə arasında qurulan əlaqələri müzakirə etmişlər. 1996-cı il mayın 14-də, EKO-nun dövlət başçılarının zirvə toplantısında keçirilib. Görüş zamanı Heydər Əliyev Nursultan Nazarbayevi Azərbaycana rəsmi səfərə dəvət edib (7). Bu dəvətin nəticəsi olaraq 16-17 sentyabr 1996-cı il tarixlərində Qazaxıstanın prezidenti Nursultan Nazarbayev Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur (11, s.71). Heydər Əliyev Qazaxıstanın dövlət başçısının şərəfinə verilmiş ziyafətdə qonaqları salamlamışvə çıxış etmidir: “Azərbaycan tarixi keçmişimizi, xalqlarımızın dərin tarixi köklərini, dilimizin, dinimizin, ənənələrimizin ümumiliyini nəzərə alaraq, həmçinin əsrimizin əvvəlindən etibarən Qazaxıstan ilə Azərbaycan arasında iqtisadi münasibətlərin inkişaf etdiyini əsas tutaraq Qazaxıstanla münasibətlərə böyük əhəmiyyət verir. İndi, Qazaxıstan və Azərbaycan müstəqil, suveren dövlətlər olduğu bir vaxtda münasibətlərimiz keyfiyyətcə yeni xarakter kəsb etmişdir və bu münasibətləri dərinləşdirmək, inkişaf etdirmək üçün böyük imkanlarımız və ehtiyatlarımız var. Azərbaycan buna maraq göstərir, ona görə də mən Qazaxıstanın dövlət başçısının səfərini olduqca məmnuniyyətlə qarşıladım və münasibətlərimizin perspektivləri baxımından bu səfərə böyük ümidlər bəsləyirəm” (12, s.32). Səfər zamanı Azərbaycan və Qazaxıstan nümayəndə heyətləri arasında görüşlər keçirilmiş, müxtəlif sahələrdə mühim sənədlər imzalanmışdır. Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında munasibətlərin əsasları haqqında müqavilə, investisiyaların təşviqi və qorunması haqqında saziş, neft qaz sənayesi sahəsində əməkdaşlıq haqqında saziş, hava əlaqəsi haqqında saziş, Xəzər dənizi məsələləri üzrə Birgə Bəyannamə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Qazaxıstan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası Milli təhlükəsizlik nazirliyi ilə Qazaxıstan Respublikası Milli Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında saziş, Azərbaycan Respublikasının Milli Bankı ilə Qazaxıstan Respublikasının Milli Bankı arasında hesablaşmaların təşkili haqqında saziş və digər sazişlər imzalanıb. Azərbaycanla Qazaxıstanın Xəzərin statusu və digər məsələlərdə birgə siyasət nümayiş etdirməsi ölkələrin diplomatik arenadakı səylərini də xeyli yaxınlaşdırıb (7). 21 oktyabr 1996-cı il Daşkənddə keçirilən Türkdilli Dövlət başçılarının IV forumunda iştirak edən Heydər Əliyev öz nitqində Qazaxıstanla dostluq münasibətlərindən söz açmışdır (12,s.216). Bununla yanaşı dövlət başçısı soykökü eyni olan mərkəzi Asiya dövlətlərinin əməkdaşlığının genişləndirilməsi istiqamətinda bir sıra addımların atılmasının vacibliyini vurğulamışdır. 1997-ci mayın 13-14-də İqtisadi Əməkdaşlıq Təşkilatının Aşqabadda keçirilən görüşü zamanı isə Nursultan Nazarbayev Heydər Əliyevi Qazaxıstana rəsmi səfərə dəvət edib (7). Bu dəvətdən sonra Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 10-11 iyun tarixlərində Qazaxıstanda rəsmi səfərdə olmuşdur. Bu səfər Azərbaycan-Qazaxıstan münasibətlərini yenimərhələyə qaldırmışdır. Səfərin yekunlarına əsasən Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında bir sıra xüsusi əhəmiyyət kəsb edən sənədlər imzalanıb. Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında əməkdaşlığın daha da inkişafı və dərinləşdirilməsi haqqında Bəyannamə, Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında neftin beynəlxalq bazarlara nəql olunması üzrə əməkdaşlıq haqqında memorandum, Azərbaycan Respublikası hökuməti və Qazaxıstan Respublikası hökuməti arasında Azərbaycan Respublikası və Qazaxıstan Respublikası vətəndaşlarının vizasız

gediş gəlişi haqqında saziş, azad ticarət haqqında saziş, mülki işlər üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında saziş, neft maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında saziş və digər sənədlər imzalanıb. Qazaxıstana etdiyi ilk rəsmi səfər çərçivəsində Heydər Əliyev həmçinin, Qazaxıstan parlamentinin hər iki palatasının deputatları qarşısında çıxış edib (7). Bu səfər ümumiyyətlə, çoxəsrlik tarixə malik olan türk xalqlarının dostluğuna müsbət təsir etmişdir. 1998-ci il iyunun 9-10-da isə Heydər Əliyev Türkdilli dövlətlərin başçılarının beşinci Zirvə görüşündə iştirak etmək üçün Qazaxıstanda səfərdə olub və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə görüşüb (7). Bu səfər həm türkdilli dövlət başçılarının görüşü həm də Astananın Qazaxıstanın yeni paytaxtı elan edilməsi məsələsi ilə bağlı olmuşdur. Görüşlər zamanı H.Əliyev nitqlər söyləmişdir. H.Əliyev Qazax xalqının zəngin tarixindən, müsibətlərindən, məğlubiyyətlərindən söz açmışdır.23-24 oktyabr 1998-ci il tarixlərində Qazaxıstan Respublikasının Baş naziri N.Balqımbayevin Bakıya rəsmi səfəri zamanı o, Azərbaycan Respublikasının Prezidenti H.Əliyev tərəfindən qəbul edilmiş, Baş nazirA.Rasizadə və Azərbaycan Beynəlxalq Əməliyyat şirkətinin Prezidenti ilə görüşmüş, Dübəndi və Sanqaçal neft terminallarında olmuşdur. Danışıqlar zamanı TRASEKA layihəsi çərçivəsində 1999-2000-ci illərdə Azərbaycan – Qazaxıstan ticarət-iqtisadi əməkdaşlığının inkişafı, Bakı-Aktau bərə xəttinin açılması və turizm sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olmuşdur (11,s.71).

**Nəticə**

20-ci əsrin sonlarına doğru beynəlxalq sistemdə böyük dəyişiklik baş verdi. Dünyanın böyük dövlətlərindən biri olan Sovet İttifaqı parçalandı və beş Mərkəzi Asiya dövləti müstəqillik əldə etdi. Yeni müstəqillik əldə etmiş bu beş dövlət öz mövqelərinə görə dünya dövlətlərinin diqqət mərkəzinə çevrildilər. Mərkəzi Asiya, Asiya və Avropa arasında strateji körpü olmaqla yanaşı, həm də strateji əhəmiyyət kəsb edən enerji ehtiyatlarına malikdir. Sovet İttifaqının dağılmasından sonra regionda dəyişən geosiyasi vəziyyət böyük əhəmiyyət kəsb edirdi. Regionda enerji marşrutlarıdəyişmək üzrə idi. Bu anda müstəqillik qazanan ölkələrdən biri də Azərbaycan idi. Mərkəzi Asiya regionunun Avropaya çıxışında mühüm rol oynayan Azərbaycan dərhal eyni ortaq köklərə sahib olduğu Mərkəzi Asiya dövlətlərilə əlaqələr qurmağa başladı. Bu əlaqələrin nəticəsi iqtisadi və sosial sahələrdə özünü müasir dövrdə də göstərir. Qazaxıstanla birgə fəaliyyət göstərilənbeynəlxalq miqyaslı layihələrin nəticəsi göz qabağındadır.

Sovet İttifaqının dağılmasından sonra yaranan MDB bu ölkələrin ümumi qayğılarına xidmət etdiyindən müstəqillikdən sonrakı ilk illərdə dövlətlərin xarici kursuna ümumi baxışın formalaşmasına kömək edə bilmişdi. MDB-yə daxil olan dövlətlər arasında milliyyətçilik, sərhəd və sərvət bölgüsü kimi səbəblərdən, eləcə də bu dövlətlərin iqtisadi sahədə tətbiq etdikləri azad bazar iqtisadiyyatına keçid problemlərindən dolayı münaqişələr də yaşanmışdır. Lakin ümumi anlamda yetmiş illik əsarətdən çıxan bu dövlətlər dünyanın siyasi səhnəsində özlərinə yer tuta bilmişlər.

## ƏDƏBİYYAT


1. Emin Gürses, Millliyyetçilik hareketleri ve uluslararsı sistem, İstanbul Bağlam yayınları 1998 s 296s
2. Zbigniew Brzezinski, Out of Control: Global Turmoil on the Eve of the 21st Century Simon and Schuster publishing1995 256p
3. Eric Hobsbawm, Nations and Nationalism since 1780Cambridge University Press 1992 206p
4. Musa Cəfər oğlu Qasımlı, Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) 2 hissədə I hissə Mütərcim Bakı 2015 648 səh
5. Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının 11 aprel 1997-ci il tarixli, 259-IQ nömrəli Qanunu. (Elektron resurs) http://e-qanun.az/framework/382322.05.2019

6. Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında ikitərəfli münasibətlər haqqında (Elektron resurs) http://www.mfa.gov.az/files/file/Azerbaycan_Qazaxistan_munasibetleri_18.09.2014.pdf22.05.2019
7. Azərbaycan – Qazaxıstan münasibətləri (Elekton resrurs)_ http://lib.aliyev-heritage.org/az/549420.html 12.06.2019.
8. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. İkinci kitab: may, 1994 – dekabr, 1994 / bur. Məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, 1997. – 604 s.
9. Azərbaycan.-1995.-14 fevral
10. Azərbaycan.-1995.-9 avqust
11. "Heydər Əliyev və Şərq" Türk dünyası. Altı cilddə. Altıncı cild. –Bakı: Çaşıoğlu, 2006.-479 s.
12. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Yeddinci kitab: iyun, 1996 – noyabr, 1996 / bur. Məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, 1998. – 520 s.

**_РЕЗЮМЕ_**

**_Дилбяр ГУСЕЙНЛИ_**

**_Цели Азербайджано-Казахстанского сотрудничества в период краха социалистической системы_**

**_Ключевые слова:_** _Азербайджан, Казахстан, империя, независимость, отношения_

Начиная с 1970-х годов в СССР начался распад из-за ошибочной экономической, политической и социальной политики, проводимой на национальном уровне, а также ряда процессов, происходящих на международной арене.Социально-экономические проблемы, которые стали возникать в последние годы, стали расшатывать веру общества в идеологию.Еще за несколько лет до этого процесса люди, убежденные в том, что живут в самом счастливом общество в мире, начинали понимать, что это не так.Идеология уже не могла найти решение социально-экономичесим проблемам общества и желаний народов. Колониальные государства, семьдесят лет находившиеся в союзе, стали стремиться к независимости.В последнее десятилетие века они один за другим получили независимость и становились суверенными государствами. После этого бывшие колониальные государства постепенно стали интегрироваться в систему международных отношений, в современный мир и налаживать отношения с другими государствами.

Аналогичным образом Азербайджан и Казахстан получили независимостьв 1990-х годах.После обретения независимости наши страны легко наладили отношения и начали сотрудничать в различных сферах благодаря общим историческим, религиозным и языковым факторам. Как в колониальный период, так и в период независимости наши республики поддерживали друг друга и сохранилидружеские отношения.

**_SUMMARY_**

**_Dilbar HUSEYNLI_**

**_The Goals of Azerbaijan-Kazakhstan Cooperation During the Collapse of the Socialist System_**

**_Keywords:_** _Azerbaijan, Kazakhstan, empire, independence, relations_

Starting from the 1970s, the USSR began to disintegrate due to erroneous economic, political and social policies pursued at the national level, as well as a number of processes taking place in the international arena.Socio-economic problems that had begun to arise in those years had begun to undermine society's faith in ideology. Even a few years before this process, people who were convinced that they lived in the happiest society in the world were beginning to realize that this was not so.Ideology could no longer find a solution to the socio-economic problems of society and the desires of peoples.The colonial states, which had been in union for seventy years, began to strive for independence.In the last decade of the century, one by one they gained independence and became sovereign states.After that, the former colonial states gradually began to integrate into the system of international relations, the modern world and establish relations with other states.

Similarly, Azerbaijan and Kazakhstan gained independence in the 1990s.After gaining independence, our countries easily established relations and began to cooperate in various fields due to common historical, religious and linguistic factors.Both in the colonial period and in the period of independence, our republics supported each other and maintained friendly relations.